# İSTƏYİRƏM ŞƏHİDLƏRƏ LAYLA ÇALIM...

*(Bu yazını şəhid anaları oxumasın)*

***Qızmar istilər keçir. Torpağın üstündə istidən nəfəs almaq olmur. Düşündüm ki, bəlkə şəhid balalara da istidir... Bəlkə onlar da istidən yata bilmirlər... Bəlkə onlara layla çalım, şirin yuxuya getsinlər...***

Lay-lay, Vətən oğulları, ey isti qanı soyuq qarı əridən balalarımız, torpağın altı çoxmu istidir?

Lay-lay, şəhid balalarımız, torpağın altında rahat yata bilirsinizmi? Yeriniz çox istidirsə, sərin su gətirib səpək başdaşlarına, sinə daşlarına...

Lay-lay deyirəm ki, yuxunuz şirin olsun, şəhid balalarımız, bəlkə yuxuda doğmalarınızı, əzizlərinizi gördünüz...

Lay-lay deyirəm, qarda, çovğunda, şaxtada bir-birinə sığınıb dağlarda, çöllərdə yatan şəhid balalarımıza...

Avqust ayının bu qızmar istisi sizi isidə bildimi?

Qardan yorğanı, daşdan yastığı olan şəhid balalarımız, yəqin ki bu isti günləri çox arzulamısınız...

İndi bu istidən bezmədiniz ki?

Bəlkə torpağın altı sərindir? Biz bunu haradan bilək...

Lay-lay deyirəm şəhid balalarımıza, ürəyində məşəl gəzdirən qeyrəti dağ yaran igidlərimizə...

Lay-lay deyirəm toy libası geyinməyən şəhidlərimizə...

Lay-lay deyirəm körpə balasının üzünü görməyən şəhidlərimizə...

Lay-lay deyirəm əli sevdiyinin əlinə qovuşmayan şəhidlərimizə...

Rahat yatın, əziz balalarımız, Allah sizi qışda soyuqdan, yayda istidən qoruyacaq... Mütləq qoruyacaq!

Şəhidlərə ağılar
(“İkinci Divan”dan)

Sinədə oğul dağı,
Qucaqladı torpağı,
Yaman zalımdır fələk,
Tez söndürdü çırağı.

* * *

Bəxtin yazıldı qara,
Sinənə dəydi yara,
Gənc yaşda şəhid olub,
Köçüb getdin məzara.

* * *

Düşmən durdu qəsdinə,
Silah çəkdi üstünə,
Yanır ürəyin başı,
İsinirəm istinə.

* * *

Bir ağız layla çaldım,
Məzara yola saldım,
Şəhidlərin önündə,
Boynubükülü qaldım.



*Gülarə MUNİS*

Kredo.- 2022- ci il.- 24 avqust.- S.16.